# DƏNİZ

Qəzet 1931-ci ilin aprelindən çıxır

18 may 2015-ci il
№ 17-18 (8975)
Qiyməti 38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti


... Azərbaycan alman faşizmi üzərində Qələbənin əldə edilməsində həlledici rol oynayıb. Mən bunu tam məsuliyyətlə deyirəm. Çünki Azərbaycan nefti, Azərbaycan neftçilərinin əməyi olmasaydı, müharibənin nəticələri tam fərqli ola bilərdi. O vaxt - müharibə illəri zamanı Sovet İttifaqında 110 milyon ton neft hasil edilmişdi. Ondan 75 milyon tonu Azərbaycan neftçiləri tərəfindən hasil edilmişdi. Təsadüfi deyil ki, alman faşizmi Bakını zəbt etmək üçün çox böyük səylər göstərmişdi. Çünki əgər Bakını zəbt etsəydilər, o zaman bütün Sovet İttifaqının əksər enerji resurslarına sahib çıxmış olacaqdılar və beləliklə, yanacaq qıtlığı ucbatından müharibənin nəticələri tam başqa ola bilərdi.

Bakını sovet ordusu müdafiə etdi və bu, xalqımızı böyük bəlalardan xilas etdi. Azərbaycanın 300 min nümayəndəsi qəhrəmancasına həlak oldu. Ancaq əgər Hitlerin ordusu Bakını zəbt etsə idi, xalqımıza qarşı soyqırımı törədilərdi. Çünki faşizm ideologiyası irqçilik, ayrı-seçkilik, ksenofobiya, başqa millətlərə qarşı nifrət üzərində qurulmuşdu. Bakının qəhrəmanlığı bu gün dünya üçün də artıq sirr deyil və biz çalışmalıyıq ki, Azərbaycan xalqının, Azərbaycan zəhmətkeşlərinin qəhrəmanlığını bütün dünyaya nümayiş etdirək. Bu yaxınlarda çəkilən və nümayiş etdirilən sənədli film də Azərbaycanın ümumi Qələbəmizə nə qədər böyük töhfə verdiyini əyani şəkildə göstərir. Azərbaycan neftçiləri ilə bərabər Azərbaycan zəhmətkeşləri də böyük fədakarlıq göstərmişlər. Müharibə zamanı Azərbaycanın sənaye müəssisələrində 130 növ silah-sursat istehsal olunurdu ki, bu da Qələbəmizin əldə edilməsində mühüm rol oynamışdı.



Biz bütün bu tarixi faktları bilirik. Bizim gənc nəslimiz də, dünya da bilməlidir. Biz Azərbaycanın faşizm üzərində Qələbənin əldə edilməsindəki müstəsna rolu haqqında danışırıq, danışacağıq və bundan sonra da bu tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdıracağıq.

Əfsuslar olsun ki, bu gün faşizm ideologiyası bəzi yerlərdə yenə də baş qaldırır. Biz buna imkan verə bilmərik, biganə qala bilmərik. Müharibə haqqında həqiqətlər təhrif olunur. Sanki kimsə tarixi yenidən yalan, siyasi sifariş üzərində yazmaq istəyir. Sovet ordusunun Qələbənin əldə edilməsində həlledici rolunu bəzi qüvvələr danmaq istəyirlər. Bu, dözülməzdir, qəbuledilməzdir. Ona görə hamımız - veteranlar, siyasətçilər, ictimaiyyət, dünya ictimaiyyəti bu məsələ ilə bağlı öz sözünü deməlidir və biz bu sözü deyirik.

Tarixi təhrif etməklə yanaşı, faşistlərin qəhrəmanlaşdırılması prosesi də gedir. Biz buna da dözə bilmərik. Çünki faşizm ideologiyası Yer kürəsində ən çirkin, təhlükəli, dəhşətli ideologiyadır. Bu gün müxtəlif ölkələrdə neofaşizm meyillərinin güclənməsi bizi haqlı olaraq narahat edir. Bizə elə gəlirdi ki, faşizm ideologiyası ilə artıq məsələ bağlandı. Bundan sonra bu, heç vaxt baş qaldırmayacaq. Ancaq əfsuslar olsun ki, biz görürük, yürüşlər, müxtəlif tədbirlər keçirilir. İndi həmin ideologiya başqa adlarla pərdələnərək dirçəlməyə başlayır.

... Əfsuslar olsun ki, Azərbaycan xalqı da XX əsrin sonlarında faşizm ideologiyasının nəticəsi olan Qarabağ fəlakəti, işğalı ilə üzləşmişdi. Biz XX əsrin sonlarında erməni faşizmi ilə üzləşdik. Bizə qarşı aparılan işğalçı siyasət, xalqımıza qarşı törədilən Xocalı soyqırımı məhz erməni faşizminin təzahürüdür. Bu gün dünyada erməni faşizmi haqqında kifayət qədər sənədlər, kitablar, məqalələr dərc edilir. Erməni faşizmini ifşa etmək üçün əsas yükü biz öz üzərimizə götürmüşük. Günahsız insanlar, qadınlar, uşaqlar ona görə öldürülürdü ki, onlar azərbaycanlıdır.

Biz erməni faşizminə qarşı mübarizə aparırıq və qurbanlarımızın qanını yerdə qoymuruq. Biz lazımi tədbirləri görürük və görəcəyik ki, faşistləri layiqincə cəzalandıraq.

*(Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışındakı nitqindən)*

# Azərbaycan xalqının Qələbədə misilsiz xidmətləri

**İkinci Cahan savaşında 700 min azərbaycanlı silaha sarılmış, 123-ü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 34 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, 176 min soydaşımız müxtəlif orden və medallarla təltif olunmuşdur.**

Hitlerin planına görə, Sovetlər İttifaqı üzərində qələbədən sonra Almaniya ordusu Hindistan hüdudlarına qədər uzanan geniş əraziləri zəbt edərək, dünya ağalığına nail olmalı idi. Faşist ordusunun bu yolu isə Qafqazdan keçməli idi.

Hitlerin bu cahanşümül qələbəni əldə etməsi üçün Azərbaycanın neft rayonları ilk növbədə işğal edilməli və Almaniya ordusuna xidmət etməli idi.

Faşist Almaniyası 1939-cu ilin martında Rumıniya ilə bağladığı müqaviləyə əsasən, onun Ploeşti neft rayonuna nəzarət edirdi və Bakı neftinə də nəzarətə nail olsaydı, faşist ordusu İngiltərə və Fransaya qarşı hərbi əməliyyatlarda qələbəni daha tez əldə edə bilərdi. Buna görə də İngiltərə və Fransanın hərbi dairələrində Bakı neftinin müqəddəratı məsələsi 1940-cı ilin əvvəlində geniş müzakirə edilirdi. Müzakirələrin yekununda Bakıya bomba zərbəsi endirilməsi planı qəbul edilmədi, bunun əvəzinə Bakı neftinin Almaniyaya Qara dəniz vasitəsilə daşına bilməsinin qarşısını sualtı qayıqlar vasitəsilə almaq planı qəbul edildi.



Beləliklə, İkinci Dünya müharibəsi Azərbaycanın sərhədlərindən çox uzaqlarda başlansa da, neft Bakısı üzrə hərbi sahədə qorxu (bomba zərbəsi və sair.) elə həmin dövrdən başlanmışdı və Sovet hərbi rəhbərliyi Bakı neft rayonunun müdafiəsi üçün müəyyən tədbirlər görməyə məcbur qalmışdı.

1942-ci ilin 4 mayında gündüz Bakı üzərində Almaniyanın kəşfiyyatçı təyyarəsi müşahidə edilmişdi. "Alman təyyarəsinin Bakıya uçuşu" məsələsi Sovet hökumətinin (XKS) 5 may 1942-ci il tarixli iclasında müzakirə edilmiş və şəhərin hava hücumundan müdafiəsi tədbirləri qəbul edilmişdi. 1942-ci ilin 23 iyununda Stalinin yanında Bakının müdafiəsi məsələsi müzakirə edildi və 58-ci ordu Bakıya gətirildi. Həmin ilin 16 sentyabrında SSRİ Dövlət müdafiə komitəsi Bakının müdafiəsi üçün xüsusi qərar qəbul etdi.

SSRİ-yə qarşı müharibəni 1941-ci ildə başa çatdırmaq haqqında Hitlerin planı həyata keçmədikdə o, qərara gəldi ki, Qafqaz neftini ələ keçirmədən müharibəni davam etdirmək mümkün olmayacaqdır. Buna uyğun olaraq Hitler Moskva istiqamətində təkrar hücum cəhdindən əl çəkərək, 1942-ci ildə əsas zərbəni Qafqaz istiqamətinə yönəltdi və gizli plan hazırlatdı.

Qərbin hərbi siyasət üzrə ekspertləri Hitlerin belə bir addım atacağını gözləmirdilər: II Dünya müharibəsi illərində ABŞ prezidentləri F. Ruzvelt və H. Trumenin hərbi hissələr üzrə məsləhətçisi olmuş admiral Uilyam Leki öz xatirələrində yazır ki,1941-ci ilin yayında Hitler Rusiyaya

*(Davamı 2-ci səhifədə)*

# Azərbaycan xalqının Qələbədə misilsiz xidmətləri

(Əvvəli 1-ci səhifədə)

(Sovetlər İttifaqına) hücum edəndə biz hesab etdik ki, "Alman orduları SSRİ-nin qərb rayonlarını və Qafqazı işğal etdikdən sonra Hitler Stalinə sülh təklifi ilə müraciət edər. Qafqazın neft mədənlərinin işğalı isə bütünlükdə Avropanın istilasını reallaşdıra bilərdi. Lakin bu təhlükəli hadisə baş vermədi. Hitler Rusiyanın içərilərinə doğru irəlilədi və bununla da alman ordularının bütün əvvəlki nailiyyətlərini heçə endirdi. Almanlar 1941-1942-ci illərin qış kompaniyası dövründə Stalinqradda və Rostovda ağır məğlubiyyətlərə uğrayaraq geri çəkiləndə hamımız rahat nəfəs aldıq. Bununla da nəinki Bakı və onun tükənməz nefti, eləcə də bütün Yaxın Şərqin zəngin neft mədənləri alman işğalçılarından azad edildi."





Azərbaycan xalqı SSRİ-nin tərkibində olmuş digər xalqlarla bərabər, Almaniyanın faşist ordusuna qarşı 1418 gün davam edən ədalətli müharibədə fəal iştirak edərək, qəhrəmanlıq nümunələri göstərmişdir. Döyüş cəbhələrinə Azərbaycandan göndərilmiş 700 min zabit və əsgərin yarısı bu müharibədə şəhid oldu.

Azərbaycan xalqının II Dünya müharibəsi illərində tərəqqipərvər bəşəriyyət qarşısında böyük xidmətlərindən biri də alman faşizminin məğlub edilməsi üçün Sovet ordusunu yanacaq ilə təmin etməsindən ibarət olmuşdur.

Böyük Vətən müharibəsi illərində cəbhənin tələb etdiyi benzin və sürtkü materiallarının 75-80 faizini Azərbaycanın hasil edərək cəbhələrə göndərməsi faktını bütün dünya bilir və təsdiq edir. Bu xidməti siyasi müstəviyə çevirən Ulu öndərimiz Heydər Əliyev demişdir: "Əgər Bakı nefti olmasaydı, Sovetlər İttifaqının qələbəsi mümkün deyildi…"

Ulu öndər digər bir çıxışında həmin məsələni daha geniş planda şərh edərək qeyd edib ki, "Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, II Dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur."

**"DƏNİZ"**

# ƏGƏR BAKI NEFTİ OLMASAYDI...

**Ümummilli liderimiz Heydər Əliyev alman faşizmi üzərində qələbənin təmin edilməsində Azərbaycanın böyük xidmətlərindən danışarkən demişdir: "Əgər Bakı nefti olmasaydı, Sovetlər İttifaqının qələbəsi mümkün deyildi."**

Bəli, Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət, fədakarlıq nümunələri göstərmişdir.

Həmin illərdə Bakı neftinin nə demək olduğunu isə alman komandanlığı da yaxşı anlayırdı. Hələ 1941-ci il aprelin 29-da yaradılan Oleburq iqtisadi qərargahı tərəfindən təsis edilmiş planda Qafqazın, ələlxüsus Bakının işğalı mühüm yer tuturdu. Qafqazın işğalı faşistlərin "A" qrupu ordusuna həvalə edilmişdi. "Ost" planına görə Bakı 1941-ci il sentyabrın axırınadək almanların əlində olmalıydı.

Düşmənin hərbi hissələrinin 1942-ci il avqust ayının sonunda Şimali Qafqaza çatması və Qroznı neft rayonunun faşist ordusu tərəfindən zəbt edilməsi müharibənin gedişində Bakı neftinin əhəmiyyətini və rolunu daha da artırdı. Müharibənin ilk illərində Baltik dənizindən Qara dənizə qədər uzanmış cəbhənin tələb etdiyi bütün benzinin 80, sürtkü yağlarının isə 90 faizini Azərbaycan təmin edirdi.

Uzun illər SSRİ-nin neft və qaz sənayesinə başçılıq etmiş Nikolay Baybakov da təsdiq edirdi ki, azərbaycanlılarsız Sovet İttifaqının faşizm üzərində qələbəsi sual altında qala bilərdi. O, demişdir: " Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. Qırxıncı illərdə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü."

O dövrdə ölkədə istehsal edilən neftin 70-75 faizi, benzinin 85-90 faizi azərbaycanlıların fədakarlığının bəhrəsi idi. 1941-1945-ci illərdə Azərbaycan ölkəyə 70 milyon ton neft, 22 milyon ton benzin göndərmişdi...

Qələbənin əldə olunmasında Xəzər dənizçilərinin də misilsiz xidməti olmuşdur. Elə müharibənin ilk günlərində keçirdikləri mitinqdə dənizçilər faşizmə qarşı amansız döyüşlərə atılmağa hazır olduqlarını bildirmişlər. Təkcə iyunun 24-də 67



kapitan, kapitan köməkçisi və baş mexanik, 160 matros, 18 operativ işçi cəbhəyə yola düşmüşdü. Gəmiçiliyin radio mərkəzləri və telefon qovşaqlarında çalışanların əlli faizi savaşın ilk ayında səfərbərliyə alınmışdı.

Müharibənin ilk ayındaca daşınılan yüklərin tərkibi və təyinatı da kəskin şəkildə dəyişdi. Üstəlik daha çox yük və hərbi qüvvə daşımaq lazım gəlirdi. Buna görə bütün nəqliyyat donanmasından, hətta dinc quruculuq dövründə yararsız hesab edilən bəzi gəmilərdən də istifadə olunurdu. Orta Asiya respublikalarına yük və adam daşınmasının həcmi xeyli artırılmışdı. Çoxtonnajlı "VKP(b)", "Jdanov", "Azərbaycan", "Profintern" tankerləri hər səfərdə göyərtəsinə 4500-5000 adam qəbul edirdi. Müharibənin ilk altı ayında 100 mindən çox adam daşınmışdı. 1942-ci ildə Stalinqrad ətrafında və Qafqazda gedən döyüşlər zamanı Xəzərdən daha çox hərbi yük keçirilmişdi. Geriyə qayıdarkən gəmilərimiz Həştərxan reydinə-Mahaçqalayadək əsgər, sursat, döyüş texnikası gətirirdi.

Ordunun yanacaqla təmin olunması da Xəzər dənizçilərinin şücaətindən çox asılı idi. Dövlət Müdafiə Komitəsinin tapşırığına görə Xəzər dənizçiləri Bakıda istehsal olunmuş yanacaq və sürtkü yağlarını nəyin bahasına olursa-olsun Volqaya çatdırmalı, Bakı- Həştərxan-Stalinqrad neft konveyeri fasiləsiz işləməli idi.

Xəzər dənizçilərinin səfərləri düşmən aviasiyasının hücumları altında keçirdi. Məsələn, "Lenin" tankeri top atəşi ilə düşmən aviasiyasının 4 hücumunu dəf etmişdi. "Azərbaycan" tankeri Həştərxan dəniz reydində alman təyyarələrinin şiddətli basqınına məruz qalmışdı.Təyyarələr hər iyirmi-otuz dəqiqədən bir tankerə və barja atəş açırdılar.

"Profintern" tankerinə dəniz reydində doqquz alman təyyarəsi hücum etmişdi. Nəqliyyat və hərbi gəmilərdə qoyulmuş toplarla təyyarələrin hücumlarını dəf etmək asan deyildi. Bombardmanlar nəticəsində 11, 33, və 75 saylı barjlar dənizdə batmışdı.

Eyni intensiv həmləyə "Ağamalıoğlu" tankeri də məruz qalmışdı..

Qırx ikinci ilin tutqun oktyabr səhəri idi. Anbarlarındakı on min ton benzinin ağırlığından yalnız yuxarı göyərtəsi suyun üzündə olan " Ağamalıoğlu" tankeri sürətini azaldıb Həştərxan reydində dayandı. Dənizçilər bu dəfə normadan əlavə altı yüz ton yanacaq gətirmişdilər.

Səfər boyu kirpik üstə kirpik qoymayan kapitan Əlibala Rəcəbov yorğun gözlərini reyddə gəzdirdi. Boz sularda təkəm-seyrək barjlar görünürdü.

Hava sakit, dəniz dalğasız idi.

Əlibala kişi buna sevinirdi. Yükü maneəsiz barjlara boşaldıb geri qayıtmağa tələsirdi. Ömrünü isti ürəyinin səxavəti ilə dənizə bağlayan, qəlbi vətən sevgisi ilə çırpınan, içərisi qansız düşmənə nifrətlə dolu kapitan Azərbaycan torpağının qızıl damarlarından gilə-gilə sorulub çıxarılan anbarlarındakı yanacaqla təyyarələrin necə qanadlandığını, ağır tankların nərə çəkərək şığıdığını təsəvvüründə canlandırır və buna məmnun olduğu qarabuğdayı çöhrəsinə qonan xəfif təbəssümündən bilinirdi.

Kapitan iş adamıydı və yaxşı bilirdi ki, liman körpüsündə, dənizdə, elə burada - reyddə itirilən dəqiqələr yalnız düşmənə xeyir gətirərdi və dərhal benzini boşaltmaq üçün ikinci barja yan almağı əmr etdi. Tanker barja yaxınlaşan anda reydin səmasının sükutunu təyyarə motorlarının vəhşi uğultusu pozdu. Kapitan alman bombardmançılarının havada cövlan etdiyini gördü, əsəbdən, həyəcandan ürəyi sıxılırdı.

"Ağamalıoğlu" yanacağın boşaldılmasını dayandırdı, yaxınlıqdakı 10 saylı barja yan aldı və manevr etməyə başladı. Əvvəlcə iki qırıcı göyərtəni və komandir körpüsünü atəşə tutdu, sonra maşın şöbəsini və avar pərlərini sıradan çıxarmaq üçün gəminin arxa altına iki bomba atdı.

Güclü partlayış baş verdi, fəqət gəmi zədə almadı. Bunu görən təyyarəçilər hiddətlənmişdilər və gəmini məhv etmək fikrindən daşınmaq istəmirdilər. Onlar anbarlarda hansı yükün olduğunu yaxşı bilirdilər və onun təyin edilmiş ünvana çatdırılmasına heç vəchlə razı ola bilməzdilər. Qırıcılar qoşalaşıb yenidən hücuma keçdi. Bu dəfəki iki bomba barjla tankerin arasına düşdü və partlamadı. Bu vaxt üçüncü təyyarə uçub gəldi. Bir gəmiyə qarşı ölüm, dəhşət yüklü üç təyyarə! Salamat çıxmaq şansı az idi. Üçüncü təyyarədən atılan bomba bortun yanında partladı. Qəlpələrdən baş mexanikin kayutu alovlandı və dənizçilər onu tez söndürdülər.

Kapitan təntimişdi. Gəmini hədəfdən necə yayındırsın, bu əslində mümkündümü? Başa düşürdü ki, yox! Bununla belə, heyəti, anbarlardakı qızıl misqalı yükü xilas etmək haqqında düşünürdü. Tanker qaynayan suların çiynində ağır-ağır yırğalanırdı. Deyirdin bu saat dənizin təkinə enəcək.

Bombardmançılardan birinin növbəti cəhdindən sonra göyərtəni alov bürüdü. Mərmi matroslardan birinin ayağını parçaladı. Zenit batareyası son döyüşçüyə qədər məhv oldu. Kapitan isə partlayışdan kontuziya aldı.

Bununla belə, Əlibala Rəcəbov kapitan körpüsünü tərk etmək fikrində deyildi, tankerə rəhbərlikdə davam edirdi. Lakin, qüvvəsi tükənməkdə idi. Gözü tor gətirir, bədəni uçunurdu. Yüngül yaralanmış siyasi köməkçi gəminin idarə olunmasını öhdəsinə götürdü.

"Ağamalıoğlu" gəmisi artıq yanırdı, heyət odla əlbəyaxa idi. Bu vaxt gəmi torpağa toxundu və saya oturdu. Dənizçilər yaman yerdə axşamlamışdılar. Zenit batareyasının göyərtədəki ehtiyat mərmiləri bir-birinin ardınca partlayırdı. Alov anbarlara keçsə necə? Nənəng tanker bir göz qırpımında havaya sovrulardı. Köməyə gələn hərbi katerin və bir teploxodun iştirakı ilə yanğını söndürmək mümkün oldu.

Gəmi saydan çətinliklə çıxarıldı, yaralılar və zədə almayanlar başqa gəmilərə keçirildi.

Üzücü səfər beləcə başa çatdı.

Qırx dördüncü ilin martında cəbhənin və xalq təsərrüfatının ehtiyacları üçün yanacaq və quru yüklər daşınmasında xidmətlərinə görə, Xəzər tanker donanmasının bir qrup işçisi təltif edilmişdi. Əlibala Rəcəbov Lenin ordeninə layiq görülmüşdü.

Həmin illər Xəzər tanker donanmasının rəisi olan Mahmud Cəfərov öz xatirələrində belə yazırdı: "Gəmilər işıq siqnalı olmadan hərəkət edirdi. Nə limanlarda, nə də reyddə işıq yox idi. Təcrübədən və intuisiyadan istifadə edərək, necə deyərlər kor-koranə gedirdilər. Adamlar iki gün fasiləsiz növbə çəkirdilər. Hərdən onların yorğun, əzgin çöhrəsinə baxıb təəccüb edirdim ki, bu qədər qüvvəni, dözümü, iradəni haradan alırdılar".

Azərbaycan dənizçiləri o vaxt ümumi vətən adlandırdığımız sovet ölkəsinə belə xidmət edir, düz ölümün üstünə gedərək döyüşçü kimi səngərdə - gəmilərin bortunda həlak olurdular.

Müharibə illərində nəqliyyat donanması 11 iri gəmisini itirmişdi, bir çox gəmilər ciddi zədə almış, 400 metal barj sıradan çıxmışdı...

Çoxları etiraf edir ki, əgər Azərbaycan nefti olmasaydı, İkinci Dünya müharibəsində SSRİ-nin İngiltərə və Amerika koalisiyası ilə birlikdə alman faşizmi üzərində qalib gəlməsi mümkün olmazdı. Bəli, Azərbaycan nefti, bir də, neftçilərimizin min cür əziyyətlə istehsal etdikləri "qara qızıl"ı düşmən aviasiyasının həmlələri altında cəbhəyə çatdıran dənizçilərimizin əfsanəvi fədakarlığı olmasaydı, bu gün ermənilər tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğalına göz yumanlara çətin ki, faşizm üzərində qələbəni qeyd etmək müyəssər olaydı. Görəsən qəddarlığına görə alman faşizmini kölgədə qoyan erməni faşizminə qarşı dünya nə vaxt haqq səsini ucaldacaq?

**Rasif TAHİROV**

# Beynəlxalq elmi-texniki konfrans iki gün davam etdi

**Azərbaycan Dövlət Dəniz Akademiyasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Dəniz nəqliyyatında innovativ texnologiyalar" mövzusunda X Beynəlxalq elmi-texniki konfrans keçirildi. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti rəhbərliyinin iştirakı ilə baş tutan və iki gün davam edən tədbirə xarici və yerli ali təhsil ocaqlarının nümayəndələri də qatılmışdı.**





Konfrans Azərbaycanın dövlət himni ili açıldı.

Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru, professor Rasim Bəşirov, "Humanitar fənlər" kafedrasının müdiri, dosent İlqar Abdullayev, elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Zahid Şərifov məruzə və çıxışlarında Ulu öndər Heydər Əliyevin zəngin həyat, bənzərsiz və titanik fəaliyyətindən, müasir müstəqil dövlətimizin yaranmasında və möhkəmlənməsində tarixi xidmətlərindən, gəmiçiliyin qorunub saxlanılmasına, inkişafına diqqət və qayğısından söhbət açdılar.

Qeyd edildi ki, müasir Azərbaycan dövlətinin banisi olan Heydər Əliyev 70-80-ci illərdə qurub yaratmaqla qurucu lider, müstəqillik dövründə isə Azərbaycanı parçalamaq və məhv olmaqdan xilas etməklə Xilaskar kimi tarixə düşüb. Bu gün biz hamımız Ulu öndərin ideyalarının təntənəsini yaşayırıq. 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan dahi rəhbər Azərbaycanı, yenicə əldə etdiyi müstəqilliyini məhv olmaq təhlükəsindən xilas etdikdən sonra ölkəmizdə ictimai-siyasi sabitlik bərba olundu. Heydər Əliyevin həyata keçirdiyi uğurlu və genişmiqyaslı islahatlar nəticəsində sosial-iqtisadi, ictimai-siyasi, elmi-mədəni və digər sahələr sürətlə inkişaf etməyə başladı.

Çıxışlarda Ümummilli liderin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində hazırda Azərbaycanın regionun lider dövlətinə çevrildiyi, həyata keçirilən qlobal və regional layihələrin ölkəmizin dünyaya inteqrasiyasını sürətləndirdiyi diqqətə çatdırıldı.. Möhtərəm Prezidentimizin rəhbərliyi ilə digər sahələrdə olduğu kimi, dəniz nəqliyyatı sahəsində də çox mühüm işlər görüldüyü, bu uğurların davamlı olması üçün ətrafında daha sıx birləşməyin, qoyduğu bütün tapşırıqların layiqincə yerinə yetirilməsinin vacibliyi vurğulandı.

Daha sonra konfrans "Gəmiqayırma və gəmi təmiri texnologiyası", "Gəmiçilik və su nəqliyyatının istismarı", Gəmiçilik texnikası", "Gəmiçilikdə təbiət elmlərinin problemləri" və "Gəmiçilikdə humanitar və dilçilik problemləri" bölmələri üzrə öz işini davam etdirdi.

**Rasif TAHİROV**

## "Cabbar Həşimov" tankerində təlim-məşq keçirilib



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti işçilərinin yanğından mühafizə üzrə biliyini yüksəltmək, ekstremal şəraitdə fiziki və psixoloji dözümlülüyünü artırmaq, onlara fövqəladə halların nəticələrini aradan qaldırmaq vərdişlərini aşılamaq məqsədilə mütəmadi olaraq təlim-məşqlər keçirilir.**

Cədvələ uyğun olaraq növbəti gəmi-sahil təlimi "Cabbar Həşimov" tankerində baş tutub. Yangın həyəcanı siqnalı verildikdən dərhal sonra gəminin kapitanı da daxil olmaqla, heyətin 14 nəfərdən ibarət bütün üzvləri maşın şöbəsində şərti yanğının söndürülməsinə cəlb edilib. Təlim-məşqdə Gəmiçiliyin "Ehram Xalıqov", "Vixr-8" və "Təbriz Xəlilbəyli" gəmiləri də iştirak edib. Səhər saatlarından başlayan və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin dispetçer mərkəzindən koordinasiya edilən təlim saat 11.00-da başa çatıb.

Təlim gəmilərin şəxsi heyətinin səhvsiz qərar qəbul etmək, zəruri cihazlardan düzgün istifadə etmək bacarığını, baş verə biləcək fövqəladə halların qarşısının alınmasına və nəticələrinin aradan qaldırılmasına hazır olduğunu bir daha nümayiş etdirib.

## Rəqəmlərin dili ilə...

**Azərbaycanda nə qədər şəhid ailəsi, Qarabağ əlili və veteranı var?**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, Prezident təqaüdü ilə təmin olunan şəhid ailələrinin sayı 12779, 20 Yanvar şəhidi ailələrinin sayı 119 nəfərdir. Həmçinin nazirlik tərəfindən ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlığını itirmiş 11994 nəfər Qarabağ əlili, 1990-cı ilin 20 Yanvar hadisələri zamanı əlil olan 327 nəfər Prezident təqaüdü, 49692 nəfər Qarabağ müharibəsi veteranı müavinətlə təmin edilir.

## "Qara qızıl"ın tarixindən

**Neft termininin yaranması ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi mənbələrdə neftə ilk adı midiyalıların verdiyi qeyd edilir. Onlar yerdən çıxan yanan maddəni "nafta", yəni "sızan", "süzülən" adlandırmışlar. Sonralar bu söz neft şəklinə düşmüşdür. Digər mənbələrdə isə bunu dini inanclarla bağlayırlar. Belə ki, Zərdüştün ardıcılları Abşeron yarımadasında yanar qazlı neft mənbələrindən dini ayini icra etmək üçün istifadə edirdilər. Neftin çıxarıldığı yeri müqəddəs hesab edən əhali buranı "naphtha" adlandırırdı ki, neftin adının da buradan götürüldüyü ehtimallardan biridir. Çində nefti "tsziyu", şumerlər "i-kur", qədim slavyanlar isə "ropa" adlandırırdılar. Neft bağların və üzümlüklərin ziyanvericilərdən qorunması, həmçinin tibbi məqsədlər üçün istifadə olunurdu.**

XIII əsrdə M. Polo İran neftini təsvir edərkən göstərirdi ki, əhali onunla yaşadıqları yeri işıqlandırır və dəri xəstəliklərini müalicə edir. Roma alimi Pliniy də təsdiq edirdi ki, neft ağrıkəsici və bərpaedici xüsusiyyətə malikdir, öskürəyi kəsir, kataraktanı müalicə edir, revmatizmi xeyli yüngülləşdirir.

Neft müxtəlif tərkibli karbohidrogenlərin mürəkkəb qarışığıdır.

Neftin əmələ gəlməsi haqda 2 fərziyyə mövcuddur. Bəzi alimlər neftin üzvi, digərlər isə qeyri-üzvi maddələrdən əmələ gəldiyini iddia edirlər.

Daha çox ehtimal edilir ki, neft də daş kömür və torf kimi, üzvi maddələrdən, çox da dərin olmayan dəniz körfəzlərinin dibində əmələ gəlmişdir.

Dəniz körfəzlərinin sularında saysız-hesabsız infuzor, amyob, molyusk və yosunlara bənzər canlı orqanizmlər yaşamışdır. Plakton adlandırılan və gözlə görünməyən bu orqanizmlər yaşayır, artır və ölürdülər. Onların qalıqları körfəzin dibinə yatırdı. Çox ehtimal ki, bunlara dəniz otları, balıq və dəniz heyvanlarının da qalıqları qarışırdı. Çayların gətirdiyi lil və qumlarla birlikdə, körfəzlərin dibinə ölmüş plaktonlar da çökmüşdür. Min illər ərzində yaranan qalın laylar çürümüş, parçalanaraq dağılmış, sonralar yaranmış laylar təzyiq və yüksək tempraturun təsiri ilə tədricən nefti əmələ gətirən karbohidrogenlərə çevrilmişdir.

Neft yataqlarına əsas etibarilə dənizlərin körfəzlərində rast gəlinməsi də elə bu səbəbdəndir.

Neftin bir yanacaq kimi istifadə edilməsi tarixi isə çıraqdan başlanır. Neftin ən qiymətli qazıntılar sırasına aid edilməsinə XIX əsrin 60-70-ci illərində yaradılan benzin mühərrikləri səbəb olmuşdur.



Neft quyuları hələ e.ə Çində qazılsa da, daha sonralar unudulmuşdur. XIX əsrdə neft hasilatçıları qazma üsulunun təkmilləşdirilməsi barədə düşünməyə başlamışlar.

Neft quyularının sənaye üsulu ilə qazılmasından sonra yeni dövrü başlamışdır.

Müasir cəmiyyətin inkişafını yanacaq, energetika ehtiyatları, neft və qazsız təsəvvür etmək qeyri-mümkündür. Nadir karbohidrogen ehtiyatlarına malik Azərbaycan neftin mənimsənilməsi və istifadəsi ilə bağlı zəngin tarixə malikdir.

Təxminən 2200 il əvvəl Xəzər dənizinin cənub-qərb sahilində neft çıxarılmış və Abşeron yarımadasında yanan "əbədi məşəllər" dünya möcüzələrindən biri kimi, səyyahları cəlb etmişdir.

Hələ 1000 il bundan əvvəl Azərbaycanda çıxan neft tuluqlara doldurularaq gəmilər və dəvələrlə uzaq-uzaq ölkələrə işıq yağı və müalicə vasitəsi kimi göndərilirdi.

Abşeronda hasilat haqqında ilkin məlumatlara qədim yazılı alban mənbələrində rast gəlmək olar. Bu mənbələrə əsasən, Abşeronda ən iri neft quyuları Balaxanı, Suraxanı, Bibiheybət, Ramana, Binəqədi kəndlərinin yaxınlığında yerləşirdi.

XIII əsrin əvvəllərində Abşerona səyahət etmiş ərəb tarixçisi Məhəmməd Bəkran kitabında Balaxanıda neftin quyudan çıxarılmasından bəhs etmişdir: yəni bu quyular Abşeronun ilk neft mədənləri sayılır.

Ölkəmiz neftlə bağı çox ilklərə imza atmışdır. XVIII əsrin ortalarında amerikalıların nefti parçalara hopdurub qaba sıxaraq yığdığı vaxtlardan bir az sonra - XIX əsrin başlanğıcında Qasımbəy adlı bakılı dünyada ilk dəfə olaraq dəniz dibindən neft çıxarmışdır. Ən mühüm faktlardan biri isə 1847-ci ildə Bibiheybətdə mexaniki üsulla neft quyularının qazılmasıdır.

M. NƏCƏFLİ

# 14-CÜ BEYNƏLXALQ NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA SƏRGİSİ











**Mayın 12-14-də Bakı Ekspo Mərkəzində 14-cü beynəlxalq nəqliyyat, tranzit və logistika ("TransCaspian-2015") sərgisi keçirildi.**

"Iteca Caspian LLC" və onun tərəfdaşı "ITE Group Plc." şirkətlərinin təşkilatçılığı, Azərbaycan Nəqliyyat Nazirliyinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) dəstəyi ilə keçirilən sərgidə yerli, habelə Almaniya, Avstriya, Belarus, Gürcüstan, Fransa, Latviya, Litva, Rusiya, İsveçrə... ölkələrini təmsil edən şirkətlər öz ekspozisiyalarını nümayiş etdirdilər.

"TransCaspian 2015" sərgisi ölkəmizin nəqliyyat infrastukturunun inkişafı, əlverişli coğrafi mövqedə yerləşən Azərbaycanın ərazisindən tranzit yüklərin daşınması imkanlarının nümayiş etdirilməsi və yük sahibləri üçün ən optimal daşıma variantlarının müəyyənləşdirilməsi baxımından mühüm nəqliyyat forumu idi.

95 şirkətin qatıldığı sərgidə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ən böyük stendlərdən biri ilə təmsil olunurdu. Sərginin açılışında iştirak edən "AXDG" QSC-nin sədri Rauf Vəliyev və qurumun digər rəhbər şəxsləri stendimizlə yanaşı, Cəmiyyətin artıq əməkdaşlıq etdiyi və birgə layihələr üçün maraqlı olan şirkətlərin də ekspozisiyaları ilə yaxından tanış oldular.

Ümumilikdə, belə tədbirlər mövcud əlaqələrin genişləndirilməsi ilə yanaşı, yeni qarşılıqlı faydalı əlaqələrin qurulması, habelə perspektivli müqavilələrin imzalanması və sərmayələrin yatırılması, eləcə də təcrübə mübadiləsi və bazarın qiymətləndirilməsi üçün yaxşı imkan yaradır.

Üç gün davam edən sərgidə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üçün ayrılmış guşə də müxtəlif ölkələrdən gəlmiş mütəxəssislərin diqqət mərkəzində oldu. Ziyarətçilərin maraqlandıqları bütün suallara isə Xəzərdə ən böyük donanmaya malik "AXDG" QSC-nin nümayəndələri ətraflı cavab verdilər.

**Tahir DADAŞOV**

# "Dənizçilər ağac əkirlər!"



**Heydər Əliyev Fondunun vitse-prezidenti, Ətraf Mühitin mühafizəsi üzrə Beynəlxalq Dialoq İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu" layihəsi çərçivəsində ağacəkmə kampaniyasında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin kollektivi də fəal iştirak edir.**







İlk günlərdən bu nəcib təşəbbüsə qoşulan Gəmiçiliyin bütün müəssisə və təşkilatlarında mütəmadi keçirilən iməciliklərdə adətən yüzlərlə könüllü iştirak edir. Gənclərin, xüsusilə Azərbaycan Dövlət Dəniz Akademiyası tələbələrinin də həvəslə qoşulduğu növbəti belə tədbir Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ərəfəsində "Dənizçilər ağac əkirlər!" şüarı altında gerçəkləşdirildi. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti rəhbərliyinin iştirakı ilə "Bibiheybət" Gəmi Təmiri Zavodunun ərazisində keçirilən iməcilikdə abadlıq və təmizlik işləri görüldü, yaşıllığa qulluq edildi, ağac və bəzək kolları əkildi.

**Tahir DADAŞOV**

*I Avropa Oyunları ərəfəsində*

# OLİMPİZM UNİVERSAL İCTİMAİ KONSEPSİYADIR



### QƏDİM OLİMPİYA OYUNLARININ İRSİ

Müasir Olimpiya Oyunları ilə onun sələfi olan Qədim Olimpiya Oyunları arasında böyük fərqlər olsa da, əsas fəlsəfi fikir - idman vasitəsilə dövlətlər, xalqlar arasında körpü yaratmaq, idmanın yalnız fiziki inkişaf vasitəsi deyil, təfəkkürün, ruhun inkişafına da təsir edən amil kimi tərənnüm edilməsi hər iki dövrdə Olimpiya Oyunlarının əsas prinsiplərindən olmuşdur.

Zevsin şərəfinə təşkil edilən Qədim Olimpiya Oyunları haqqında yazılı mənbələrdə ilk məlumat eramızdan əvvəl 776-cı ilə təsadüf edir və bundan öncə Qədim Olimpiya Oyunlarının tarixinin nə qədər öncəyə aid olduğunu müəyyən etmək çətindir. Ümumyunan Oyunlarının tərkib hissəsi olan Olimpiya Oyunları Yunanıstanın bir neçə bölgəsində keçirilən oyunlardan ən möhtəşəmi idi. Eyni xalqın nümayəndələri olan, eyni dildə danışıb, eyni dinə mənsub olan yunanların ayrı-ayrı şəhər dövlətləri bir-biri ilə müharibə apardığı dövrdə Olimpiya Oyunları onları idman təntənəsi altında bir araya gətirərək bir mədəniyyətə, bir xalqa mənsub olduqlarını dərindən dərk etmələri, fikir mübadiləsi aparmaq və birləşmələri üçün çox münbit şərait yaradırdı. Odur ki, Qədim Olimpiya Oyunları yunan xalqının tarixi, mədəniyyəti, sosial, iqtisadi və siyasi həyatında, dövlətçiliyin formalaşmasında çox mühüm bir amil kimi səciyyələnir.

Olimpiya Oyunlarında yunan vətəndaşlığı olan azad kişilər iştirak edə bilərdilər. Cinayət və ya oğurluq etmiş şəxslər, xarici ölkələrdən olan kişilər, qullar və qadınlar bu yarışlara buraxılmırdı.

Oyunların ilk günü idmançılar Zevsin heykəli önündə "andın mühafizəkarları" qarşısında qaydalara əməl edəcəklərinə və şərəflə mübarizə aparacaqlarına and içirdilər. Eyni andı idmançının atası, qardaşı və məşqçisi də içməli idi. Onlar heç bir cinayət işlətməyəcəklərini də bu andda qeyd edirdilər. Yarışda fırıldaqçılığa görə fiziki cəza, korrupsiyaya görə isə cərimə tətbiq edilirdi.



Hakimlər də ədalətlə işləyəcəklərinə and içirdilər. İştirakçıları yaşlarına görə ayırmaq və ya azad vətəndaş olduqlarını müəyyən etmək incə məsələ idi. Qaçış zamanı finiş xəttini eyni zamanda keçən idmançını müəyyən etmək və ya pankration yarışları zamanı düzgün qərar vermək məsuliyyəti hakimlərin öhdəsinə düşürdü. Odur ki, müqəddəs and qarşısında məsuliyyət hakimlərin ədalətli mövqe tutacağına təminat idi.

Olimpiya Oyunlarında müqəddəs andı pozmuş idmançı cərimə olaraq öz hesabına Zevsin bürünc heykəlini ucaltmalı idi. Heykəlin postamenti üzərində bu abidənin yarışlarda ədalətsiz mübarizə aparmış hansı idmançının cəriməsi hesabına ucaldığı qeyd olunurdu. Bu heykəllər Stadiona aparan yol boyu düzülür və idmançılara mübarizəyə qoşulmaqdan öncə Oyunların dəyərlərinə zidd olan hərəkətlərin cəzasının nə olduğunu bir daha xatırladırdı. İlk abidələrdən biri üzərində yazılır: "Olimpiya qələbəsi pul ilə deyil, ayaqların zirəkliyi və bədənin gücü ilə əldə edilir". Hazırda qədim Olimpiya stadionunun girəcəyində belə heykəllərin bir qisminin postamentləri qalmaqdadır. Bütün bu məlumatlar hələ qədim dövrlərdə Oyunların iştirakçıları və qaliblərinin xalq qəhrəmanları kimi öz nümunələri ilə cəmiyyətə tərbiyəvi irs qoymalarının vacibliyinin, cəmiyyətə yalnız fiziki cəhətdən deyil, eyni zamanda mənən və ruhən güclü insanların gərəkli olmasının təbliğ edildiyini göstərir.

*(Əvvəli ötən nömrəmizdə)*

Əlbəttə, Müasir Olimpiya Oyunları artıq özü böyük bir tarixi inkişaf yolu keçmiş, genişlənmiş, təkmilləşmiş, bəşəriyyətin ən möhtəşəm idman bayramına çevrilmişdir. Sadəcə ilk və son Müasir Olimpiya Oyunlarına dair bəzi faktları müqayisə etməklə, bu inkişafın nə qədər nəhəng olduğu aydın görünər. Məsələn, 1896-cı ildə keçirilən Afina Olimpiya Oyunlarında cəmi 14 ölkə 245 idmançı ilə iştirak etmişdisə, 2012-ci il London Oyunlarında 204 dövlət 10500 idmançı ilə təmsil olunurdu. 1896-cı ildə Olimpiya proqramı çərçivəsində 43 idman tədbiri, 2012-ci ildə isə 300 idman tədbiri keçirilmişdir. Qadınlar ilk dəfə ikinci Olimpiya Oyunlarından etibarən (Paris, 1900) iştirak etməyə başlamışlar və bu Oyunlarda iştirakçıların yalnız 2,2 faizi qadınlar idi. Son Olimpiadada isə bu göstərici artıq 44,2 faizə çatmış və bütün iştirakçı ölkələrin komanda heyətinə ən azı bir qadın idmançı daxil edilmişdir.

Müasir Olimpiya Oyunları cəmiyyətin iqtisadi, siyasi və sosial həyatına ciddi təsir edən bir tədbirdir. Bu təsir Oyunlardan öncə, Oyunların keçirildiyi müddət və Oyunlardan sonrakı dövrlərə bölünərək, hər bir dövrdə iş yerlərinin artımı, turizm və sahibkarlıq fəaliyyətinin




genişlənməsi, əhalinin maarifləndirilməsi, infrastrukturun inkişaf etdirilməsi, əhalinin ruhlandırılması, ölkənin və dövlətin dünya ictimaiyyətinə təqdim edilməsi, eləcə də siyasi proseslərin inkişafı baxımından özünəməxsusluğu ilə seçilir. Son Yay Olimpiya Oyunlarına (London 2012) cəlb olunmuş işçi qüvvəsinin sayı 200 000 nəfər, akkreditə olunmuş media nümayəndələrinin sayı 21 000, Oyunların keçirildiyi müddətdə Londona səfər etmiş tamaşaçıların sayı 20 milyon, Oyunları televiziya vasitəsilə izləmiş tamaşaçıların sayı təqribi 4,8 milyard olmuşdur. Bu rəqəmlərin dünyanın dörd bir yerindən cəlb olunmuş insanlara aid olduğunu və belə nəhəng tədbirin həyata keçirilməsində müxtəlif beynəlxalq təşkilatların əməkdaşlığını və rolunu nəzərə alsaq, Olimpiya Oyunlarının qloballaşmanın ən geniş mənada (mədəni, iqtisadi, sosial və siyasi) təcəssümü olmasının daha bir təsdiqidir.

Zəmanəmizin öncüllükləri dəyişmiş olsa, iqtisadi-siyasi motivlərin Olimpiya Oyunlarının təşkilinə qismən təsiri artsa da, qədim Olimpiya Oyunlarının varisi olan Müasir Olimpiya Hərəkatı ümumbəşəri dəyərlər üzərində qurulmuş Olimpizmin fəlsəfəsini gələcəyə inamla daşıyır, idmanın imkanlarından istifadə edərək sülh, təhsil və mədəniyyəti inkişaf etdirməyə səy göstərir. Beynəlxalq Olimpiya Komitəsi hər kəsin idmanın fiziki və mənəvi dəyərlərindən faydalana bilməsi üçün öz inkişaf dövründə Paralimpiya Oyunları, Qış Olimpiya Oyunları, Gənclərin Olimpiya Oyunları, Qitə Oyunlarının təşkilinə dəstək verməklə humanizm missiyasını həyata keçirir. Belə Oyunlara ev sahibliyi edən hər bir ölkə də öz növbəsində bu fövqəladə fürsətdən hər bir sahədə maksimum yararlanmağa çalışır. Bu sahələrdən əldə edilən bəlkə də ən ümdə dəyər əhalinin geniş kütlələrinin Olimpiya ideallarına köklənməsidir. Çünki bu ideallar insanları öz üzərində işləyərək, ədalətli mübarizə apararaq qələbə çalmaq və yüksəlmək, qarşısındakının müxtəlifliklərinə baxmayaraq, hüquqlarına hörmət etmək, rəqabəti düşmənçiliyə çevirməmək, başqalarının zəhməti ilə əldə etdiyi uğurlarına ehtiram göstərmək, müvəffəqiyyətsizliyində dəstək olmağa çağırır.

Bununla yanaşı, qeyd edilməlidir ki, Olimpiya Hərəkatı cəmiyyətlə paralel inkişaf edir və qarşılıqlı təsirə malikdir. Elmi-texniki tərəqqi bir tərəfdən hərəkatın inkişafı, idmanda ədalət prinsiplərinin qorunmasına yeni imkanlar yaratsa da ( nəticələrin daha dəqiqliklə qeydə alınması, tibbi nəzarət, informasiyanın əldə yayılması və s.), digər tərəfdən elmin inkişafından sui istifadə edərək insanın təbii fiziki imkanlarının süni şəkildə artırılması ilə (dopinq, xüsusi idman geyimləri, genetik gücləndirmə və s.) sağlam rəqabətin təmin edilməsinə maneələr yaradır.



Olimpiya dəyərləri cəmiyyətə sehrli çubuq vasitəsilə deyil, maarifləndirmə, təbliğat, bir sözlə Olimpiya təhsili vasitəsilə ötürülür. Gənc nəslin yeni informasiyanı daha asan qəbul etmək qabiliyyətini, uşaq yaşlarında tərbiyə edilən keyfiyyətlərin uzunmüddətli iz qoymasını, gənclərin bir şəxsiyyət kimi formalaşması üçün alternativ təsir vasitələrindən istifadənin bəzən daha effektli olmasını, Olimpizmin əsasən gənclərin daha fəal iştirak etdiyi idman fəaliyyəti vasitəsilə, əyləncəli, zövqverici şəkildə çatdırıla bilməsini və idman fəaliyyətinin təşkilinin bir proses olmasını ( müvafiq institutların iştirakı vardır) nəzərə alaraq, Olimpizmin fəlsəfəsinin cəmiyyətə daha sürətlə inteqrasiyası üçün ilk növbədə məhz gənclər hədəf qrupu seçmək məqsədəuyğundur. Bu konsepsiya proqramlaşdırılmış şəkildə təhsil sistemi, gənclər təşkilatları, bədən tərbiyəsi və idmanın idarə edilməsi sistemi və kütləvi informasiya vasitələri ilə realizə oluna bilər. Olimpiya təhsili qismən müxtəlif fənlər üzrə tədris proqramlarına (Fiziki tərbiyə, Ədəbiyyat, Tarix, İctimaiyyət və s.) daxil edilə və ya fakültativ şəkildə tədris edilə bilər.

Olimpizm öyrədilən və öyrənilən dir. Olimpizm həyat boyu öyrənilə bilən və həyat boyu istifadəsinə ehtiyac duyulan bir konsepsiyadır.

Ölkəmizdə də Olimpiya Hərəkatına böyük önəm verilir. Bəşəriyyətin bu möhtəşəm tədbirində Azərbaycan idmançıları ilk dəfə 1952-ci ildə (Helsinki Olimpiya Oyunları) keçmiş SSRİ-nin tərkibində beş idmançı ilə iştirak etmiş və elə həmin Olimpiya Oyunlarında da ilk Olimpiya medalını qazanmışlar(güləşçi Rəşid Məmmədbəyov). Azərbaycanın müstəqil dövlət kimi Olimpiya Oyunlarında ilk dəfə təmsil olunması 1996-cı il Atlanta Oyunlarına təsadüf etsə də, 1992-ci ildə Barselonada ke-



çirilən Oyunların yeni müstəqillik qazanmış dövlətlərin, o cümlədən müstəqil Azərbaycan dövlətinin idman tarixində xüsusi yeri vardır. MDB komandasının tərkibində çıxış edən 5 idmançımız bu yarışlarda şəxsi birinciliklərdə müstəqil dövlətimizin bayrağını ucaltmaq imkanı əldə etmişlər. Azərbaycan cüdoçusu Nazim Hüseynov, beləliklə, ilk dəfə dövlət bayrağımızı Olimpiya Oyunlarında dalğalandırmağa müyəssər olmuşdur. Bu oyunlarda gimnastımız Valeri Belenki də şəxsi birincilikdə bürünc, komanda hesabında isə qızıl medal qazanaraq xalqımıza Olimpiya sevinci yaşatmışlar. 1996-cı ildə Namiq Abdullayevin Atlanta Oyunlarında əldə etdiyi gümüş müstəqil dövlətimizin yeni Olimpiya salnaməsinin başlanğıcı idi. Sonrakı hər bir Olimpiya Oyunları ölkəmizin idman tarixinə yalnız yüksəlişlə həkk olunmuşdur.

Şübhəsiz, bütün bu nəticələr dövlətimizin Olimpiya Hərəkatına verdiyi böyük dəyərlər, Olimpiya ideallarına olan böyük rəğbətin əyani sübutudur. Görülən işlərin nəticəsidir ki, Azərbaycanımız idman tarixində ilk dəfə 2015-ci ildə təşkil ediləcək Avropa Oyunlarına ev sahibliyi etmək şərəfinə layiq görülmüşdür. 2017-ci ildə isə daha bir mötəbər tədbirin, İslam Həmrəyliyi Oyunlarının Bakıda təşkili ilə bərabər, beynəlxalq siyasi və ictimai institutlar tərəfindən dövlətimizin ümumi tərəqqisinin və artan nüfuzunun tanınmasına dəlalət edir.

**Səlhət ABBASOVA,**
**fəlsəfə doktoru**

# Dənizlərin qadın hökmdarları

**Qədim dövrlərdən belə hesab edilir ki, dəniz quldurluğu kişi işidir. Çoxsaylı macəra romanlarında quldurların təhlükəli həyatından, qara yelkənli gəmilərdən, "Şən Rocer" adlanan kəllə-sümüklü bayraqlardan, qarət edilmiş qənimətlə dolu sandıqlardan ətraflı söhbət açılır. Lakin müəlliflər bəzən öz cəsarətləri ilə kişiləri kölgədə qoyan qadın dəniz quldurlarını nədənsə nadir hallarda xatırlayırlar.**

İlk pirat qadın haqqında tarixi məlumatda fransız Janna de Belvilin adı çəkilir. O, nə var-dövlətə, nə də macəralara həvəsi üzündən dəniz quldurluğunu özünə peşə seçmişdi. Janna ərinə görə intiqam almağa çalışıb. Hadisələr XIV-XV əsrlərdə cərəyan edib. Fransa kralı İkinci Filipin əmri ilə Janna de Belvilin əri satqınlıqda günahlandırılaraq həbs edilib və heç bir məhkəmə olmadan cəlladın əlinə verilib.

Dul qadın amansızcasına intiqam alacağına and içib. O, bütün əmlakını sataraq, 3 sürətli gəmi alıb və Fransanın ərazi sularında kral donanmasının qəniminə çevrilib. Neçə-neçə gəmini suya qərq edən, sahil rayonlarını dəhşət və qorxu içində saxlayan əsilzadə xanımın sonrakı taleyi məlum deyil.

Təxminən 200 il sonra İngiltərənin Devon qraflığında Meri Rid adlı bir qızcığaz dünyaya gəlir. Valideynləri oğul istədiklərindən, qızlarını oğlan kimi tərbiyə edir və geyindirirdilər. Artıq 13 yaşından Meri çörək pulu dalınca tərsanəyə getməli olur. Sonra o, piyada alayına kadet qəbul edilir və nəhayət, hansısa gəmiyə yunqa kimi işə götürülür. Meri zərif cinsə mənsubluğunu uğurla gizlədir. Yalnız Fleminq adlı yaraşıqlı bir gəncə vurulduqda, hər şeyi ona danışır. Sevgililər evlənirlər. Amma xoşbəxtlik uzun sürmür. Ərini itirmiş Meri-tənha, cibində xırda pulu belə olmayan qadın yenidən kişi paltarı geyərək, gəmiyə işə düzəlir. Günlərin birində piratlar onun işlədiyi gəmini ələ keçirirlər. Həyatdan küsmüş Meri dəniz quldurlarına qoşulur, öz sərtliyi, amansızlığı, hünər və cəsarəti ilə ad çıxarır, hətta leytenant rütbəsi alır.

Taleyin hökmü ilə pirat gəmisində kişi cildində daha bir qadın peyda olur. Onun da həyat tarixçəsi çox maraqlıdır. Əslən irlandiyalı olan Enn Bonni tanınmış bir vəkilin və sadə qulluqçunun qanunsuz övladı idi. Onun uşaqlığı Cənubi Karolinada, atasının plantasiyalarında keçmişdi. Hələ o vaxtdan ona ipə-sapa yatmayan xasiyyətinə görə, "şeytan balası" ləqəbini vermişdilər. Ailəsinin yaşadığı Çarlston şəhəri dəniz quldurlarını cəzb edirdi. Axı onlar qarət etdiklərini burada satırdılar. Kürən saçlı irlandiyalı qız quldurlardan birinə - Con Rekhemə vurulur və ata evini tərk edir. Enn "Drakon" gəmisində "matros Andres" adı altında çoxsaylı hücumlarda iştirak edir, tezliklə qorxmaz və ürəkli quldura çevrilir, saysız duelləri və qanlı döyüşləri ilə sayılıb-seçilməyə başlayır. Ətrafdakılar onun məsləhətlərinə qulaq asırlar, hətta qızın cəsarətli planı bütün komandanı ölümdən xilas edir. Hadisə isə belə olub.

"Drakon" ərzaq və su ehtiyatını doldurmaq üçün bir buxtaya girdikdə, onu gizlicə izləyən ispan hərbi gəmisi farvaterin ortasında dayanaraq çıxış yolunu kəsir. İspanlar quldurluqda şübhəli bilinən gəminin yoxlanılmasını səhərə saxlayırlar, amma "Drakon"u gözdən qoymurlar. Onlar belə düşünürdülər ki, tələyə düşmüş quldurlar qətiyyətlə hərəkətə gələrək özlərini ifşa edəcəklər. Lakin "Drakon"da sakitlik hökm sürürdü - dəniz quldurları oturub xilas yollarını müzakirə edirdilər. Heç kəsin məsləhəti ağıllarına batmırdı. Nəhayət, Enn öz fikirlərini bölüşdü. O, diqqət yetirmişdi ki, buxtada onlardan və ispanlardan başqa bir ingilis gəmisi də dayanıb. Əgər bu gəmini ələ keçirsələr, ispanları aldatmaq və sakitcə tələdən qurtulmaq mümkündür. "Belə bir riskə hazırsınızsa, əməliyyata rəhbərlik edə bilərəm" - deyən Enn hamının tam etimadını qazanır. Plan çox uğurlu alınır. Quldurlar gecədən xeyli keçmiş öz qayıqlarında ingilis gəmisinə yan alıb, onu səs-küysüz ələ keçirirlər. Gözətçilər öldürülür, komanda isə əsir götürülür. Bortunda pirat heyəti olan ingilis gəmisi səhər tezdən lövbəri qaldırır və maneəsiz olaraq buxtanı tərk edir. İspanlar fırıldağı başa düşmürlər. Bu hadisədən sonra Ennin quldurlar arasındakı nüfuzu xeyli artır.

Elə həmin dövrdə iki pirat qadının taleləri kəsişir. Bir gəmiyə düşmüş Enn və Meri ayrılmaz rəfiqələrə çevrilirlər. Con Rekhemin başçılığı altında macəralarını davam etdirirlər. Onlar döyüşdə həmişə çiyin-çiyinə vuruşur, hücuma birinci atılır, heç kimə aman vermirlər. Amma tezliklə uğur ilahəsi quldurları tərk edir. Növbəti içki məclisindən sonra ayılmamış quldurlar güclü müqavimət göstərə bilmirlər. Enn və Meri şir kimi vuruşsalar da, düşmən sayca çox idi. Quldurlar əsir düşürlər. Con Rekhem edam edilir, qadınlar isə hamilə olduqlarına görə ölümdən qurtulur və həbsxanaya göndərilirlər. Meri edamdan qaça bilsə də, taledən qaça bilməyir. Doğuşdan bir qədər sonra o, vəfat edir. Enn isə günlərin birində müəmmalı surətdə həbsxanadan yoxa çıxır. Deyirlər ki, onu varlı atası xilas edib. Görünür, sərt ata qəlbi yumşalmış və o, qızını bağışlamışdı.

**"DƏNİZ"**

# Ən qəribə müharibələr

## 335 il davam edən itkisiz müharibə

Bu müharibə Niderland və İngiltərə arasında Siliya adası uğrunda baş verib. 335 il davam edən müharibədə bir güllə belə atılmamış və hər hansı itki haqda məlumat verilməmişdir. Müharibə 1986-cı ildə imzalanan sülh sazişi ilə başa çatmışdır.

## Cəmi qırx dəqiqə çəksə də...

Anqlo-Zənzibar savaşı tarixə ən qısa müharibə kimi düşüb. 1896-cı ilin 17 avqustunda Birləşmiş Krallıq və Zənzibar arasında müharibə başlayır və 40 dəqiqədən sonra başa çatır. Müharibənin başlamasına səbəb Britaniya meylli Sultan Hamad bin Tuvainin öldürülməsi və Sultan Xalid bin Barqhaşın hakimiyyəti ələ keçirməsi olub. Cəmi 40 dəqiqə çəksə də, bu müharibədə Xalidin 500 tərəfdarı öldürülmüş, bir britaniyalı dənizçi yaralanmışdı.

## Futbol müharibəsi

"100 saatlıq müharibə" adıyla tanınan bu savaş 1969-cu ildə El-Salvador və Honduras arasında baş verib və 5 gün davam edib. Müharibəyə səbəb iki ölkə arasında siyasi münaqişələr və miqrasiya problemləri olub. Münaqişə 1970-ci ildə FİFA Dünya Kubokunun Şimali Amerika ikinci seçmə mərhələsi zamanı başlayır. El-Salvador ordusu 1969-cu il iyulun 14-də Honduras üzərinə hücuma keçir. Amerika Dövlətləri Təşkilatı iyulun 20-də iki ölkə arasında sülhün bərqərar olmasına nail ola bilib.

## Donuz müharibəsi

Müharibə ABŞ və Britaniya hakimiyyətinin sərhədi olan San Xuan adalarında bir donuzun öldürülməsi nəticəsində başlamışdı. ABŞ-ın tarixinə qansız müharibə kimi daxil olan bu savaşda ən böyük itki də elə donuzun öldürülməsi olub.

## Emu müharibəsi

Avstraliya ordusu və emu dəvəquşuları arasında 1932-ci ildə başlayan və bir həftə davam edən müharibə belə adlanır. Avstraliyanın qərbində sayları hədsiz dərəcədə çoxalan dəvəquşular ərzaq və su qıtlığının səbəbkarı hesab edilirdi. Hər bir əsgərin iki pulemyotla silahlandığı bu müharibədə 20 min dəvəquşu öldürülür.

**Tahir DADAŞOV**

# Aralıq dənizində 1750 miqrant həlak olub



**İtaliya polisinin məlumatına əsasən ötən həftənin sonunda İtaliya sahilləri yaxınlığında 5800-dən çox afrikalı miqrant xilas edilib. Bu barədə "BBC" agentliyi xəbər verib.**

Eyni zamanda bildirilir ki, İtaliyanın Sərhəd Mühafizə Xidməti Liviya sahilləri yaxınlığında dənizdən 10 cəsəd çıxarıb.

Xilas olunan miqrantlar İtaliya və Fransa gəmiləri vasitəsilə həyata keçirilən 17 fərqli əməliyyat nəticəsində taxta və rezin qayıqlardan götürülüblər.

Bununla yanaşı, Misir mətbuatı bildirir ki, bazar günü baş vermiş digər bir hadisədə miqrantları Avropaya daşıyan qayığın Misir sahillərində batması nəticəsində 3 nəfər həlak olub, 31 miqrant isə xilas edilib.

Məlumata görə, bu il Aralıq dənizini keçməyə çalışan ən azı 1750 insan həlak olub. 2014-cü ilin eyni vaxtında isə ölənlərin sayı 96 nəfər təşkil edib.

"BBC"-nin verdiyi məlumata görə, bu il xilasedicilər üçün ən gərgin günlər aprelin 12-si və13-ü olub. Həmin vaxt 6500 insan xilas edilib.

Havaların istiləşməsi ilə bağlı növbəti həftələrdə də daha çox miqrantın dənizi keçməyə cəhd göstərəcəyi gözlənilir.

Böhranı müzakirə etmək üçün ötən ay keçirilmiş fövqəladə iclasda Avropa Birliyi liderləri bildiriblər ki, xilasetmə əməliyyatlarının maliyyələşdirilməsi üç dəfə artırılacaq.

Xatırladaq ki, apreldə bir gəminin batması nəticəsində 800 nəfər həlak olmuşdu. Həddindən artıq yüklənmiş gəmi Liviyanı tərk etdikdən qısa müddət sonra batmışdı. Qəzada xilas olunanlardan 27 nəfəri bildirmişdi ki, miqrant daşınması ilə məşğul olan şəxslər onları döyərək qayığa daha çox insan yerləşdirməyə çalışıblar.

# Sərnişin bərəsi yanıb

**Malyorka adasının yaxınlığında İspaniyaya məxsus sərnişin bərəsi yanmışdır. Gəmi Palma-de-Malyorka şəhərindən Valensiyaya gedirmiş.**

Bərənin 156 sərnişini və heyət üzvü xilasetmə qayıqları ilə gəmini tərk etmişdir. Heyət üzvlərindən dördü yaralanmışdır. Onlardan ikisinin vəziyyəti ağırdır. Hadisənin səbəbi hələ müəyyənləşdirilməmişdir. "Frans Press" agentliyi qeyd edir ki, "Sorrento" bərəsi göyərtəsinə təxminən 1000 sərnişin və 150 avtomobil götürə bilir. Balear adalarının limanlar idarəsindən verilən məlumata görə, yanğından ziyan çəkmiş gəminin batmaq təhlükəsi var.

**"DƏNİZ"**





*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Консульская фактура — Konsul fakturası
### CONSULAR INVOICE

Счет, выписываемый продавцом, который заверяется консульским учреждением государства, на территорию которого направляется товар. Консульская фактура должна содержать те же данные, что и коносамент.

Satıcı tərəfindən yazılan və ərazisinə malın göndərildiyi dövlətin konsulluq idarəsi tərəfindən təsdiqlənən hesab sənədi. Konsul fakturası da konosamentdəki məlumatları özündə əks etdirməlidir.

### Контейнер — Konteyner
### CONTAINER

Транспортная единица специальной формы, служащая для перевозки генеральных и специализированных грузов и отвечающая требованиям международного стандарта. Существует более 40 типов контейнеров, имеющих различные назначения. Основные размеры контейнера: высота - 8 и 8,5 футов, ширина - 8 футов, длина -10,20,30,40 футов.

Əsas və xüsusiləşdirilmiş, habelə beynəlxalq standartın tələblərinə cavab verən yüklərin daşınması üçün xüsusi formalı nəqliyyat vahidi. Müxtəlif təyinatlı konteynerlərin 40-dan artıq tipi mövcuddur. Konteynerlərin əsas ölçüləri belədir: hündürlüyü - 8,0 və 8,5 fut, eni - 8,0 fut, uzunluğu - 10, 20, 30, 40 fut.

### Контейнеризация — Konteynerləşdirmə
### CONTAINERIZATION

Метод доставки товаров в контейнерах, позволяющий вовлекать в транспортно-технологическую систему морской, речной, воздушный, железнодорожный и автомобильный транспорт. Бурное развитие контейнеризации привело к необходимости стандартизации крупнотоннажных контейнеров и выработке требований к их конструкции, которые регламентируются Международной Конвенцией по безопасным контейнерам. Основные преимущества контейнеризации грузов: доставка грузов «от двери до двери» без промежуточной перегрузки, малый риск повреждения грузов, более быстрая доставка грузов, экономия рабочей силы и складских помещений.

Nəqliyyat-texnologiya sisteminə dəniz, çay, hava, dəmir yolu və avtomobil nəqliyyatını cəlb etməyə imkan verən malların konteynerlərlə çatdırılması metodu. Konteynerləşdirmənin sürətli inkişafı iritonnajlı konteynerlərin standartlaşdırılması və onların konstruksiyaları üçün təhlükəsiz konteynerlər haqqında Beynəlxalq Konvensiya ilə nizamlanan tələblərin hazırlanması zərurətini yaratmışdır. Yüklərin konteynerləşdirilməsinin əsas üstünlükləri bunlardır: arada yenidən yükləmə olmadan yüklərin «qapıdan qapıyadək» çatdırılması, yüklərin zədələnmə riskinin az olması, yüklərin daha tez çatdırılması, işçi qüvvəsinə və anbar sahəsinə qənaət.

### Контейнерная пломба — Konteyner plombu
### CONTAINER SEAL

Контейнерная пломба используется вместе с замком для опломбирования контейнера. Она обычно имеет номер или код, что зафиксировано в соответствующих документах.

Konteyner plombu qıfılla birlikdə konteyneri plomblamaq üçün istifadə edilir. O, adətən müvafiq sənədlərdə qeyd edilmiş nömrəyə və ya koda malik olur.

### Контейнерный пул — Konteyner parkı
### CONTAINER POOL

Судовладельцы, предприниматели или операторы создают единый парк контейнеров для общего пользования с наибольшей выгодой.

Gəmi sahibləri, sahibkarlar və ya operatorlar daha çox qazanc əldə etmək məqsədi ilə ümumi istifadə üçün vahid konteyner parkı yaradırlar.

### Континент — Kontinent
### CONTINENT

Район, которым в практике фрахтования судов обычно обозначают континентальные морские порты западноевропейских стран, расположенные между Бордо (или Гавром) и Гамбургом.

Gəmilərin fraxt edilməsi praktikasında adətən Bordo (yaxud Havr) və Hamburq arasında yerləşən Qərbi Avropa ölkələrinin kontinental dəniz limanlarını bildirən rayon.

### Контрабанда морская — Dəniz qaçaqmalçılığı
### SMUGGLING

Совершенное с нарушением таможенного законодательства и правил тайное перемещение через морскую государственную границу товаров, ценностей и иных предметов помимо таможенных учреждений либо через таможенные учреждения, но с сокрытием (ценностей) от таможенного контроля, а также сами провезенные таким образом товары (ценности). В Международном морском праве особое значение приобрел вопрос о морской военной контрабанде, под которой понимается совершенная вопреки запрету воюющей стороны доставка ее противнику морским путем или попытка такой доставки нейтральными государствами, их физическими или юридическими лицами грузов, а также сами эти грузы. Содержащиеся в международном морском праве положения о морской военной контрабанде явились результатом компромисса в длительной борьбе, с одной стороны, нейтральных государств за свободное ведение нейтральной торговли во время войны, а с другой стороны, воюющих государств за предотвращение помощи нейтральных государств их противникам.

Gömrük qanunvericiliyinin və qaydalarının pozulması ilə dövlət dəniz sərhədindən malların, qiymətli əşyaların və digər əşyaların gömrük müəssisələrindən yan keçirilməsi, yaxud gömrük nəzarətindən (qiymətli əşyaları) gizlədərək, gömrük müəssisələrindən keçirilməsi, həmçinin belə üsulla gətirilmiş mallar (qiymətli əşyalar). Beynəlxalq dəniz hüququnda dəniz hərbi qaçaqmalçılığı haqqında məsələ xüsusi əhəmiyyət kəsb edir, bu anlayış altında müharibə aparan tərəfin qadağasına baxmayaraq, onun düşməninə bitərəf (neytral) dövlətlər tərəfindən, bu dövlətlərin fiziki və ya hüquqi şəxsləri tərəfindən dənizlə yüklərin çatdırılması və ya belə cəhdin göstərilməsi, həmçinin yüklərin özü başa düşülür. Beynəlxalq dəniz hüququnda dəniz hərbi qaçaqmalçılığı haqqında müddəalar, bir tərəfdən, müharibə zamanı bitərəf ticarətin sərbəst şəkildə aparılmasına görə neytral dövlətlərin, digər tərəfdən isə, müharibə edən dövlətlərin onların düşmənlərinə bitərəf dövlətlər tərəfindən köməyin göstərilməsinin qarşısını almağa görə apardıqları uzunmüddətli mübarizədə güzəştin nəticəsidir.

### Контрибуционный дивиденд — Kontribusiya dividendi
### CONTRIBUTORY DIVIDEND

Процентное отношение общей аварии к контрибуционной стоимости. Необходимо для определения доли общей аварии, подлежащей пропорциональному распределению стоимости груза, судна и фрахта. Так, если общая авария составляет 100 тыс. долл., а контрибуционная стоимость - 300 тыс. долл., то контрибуционный дивиденд составит 0,3333333%. В указанном проценте будет определяться доля общей аварии, выпадающая на судовладельца (из стоимости судна и фрахта, если он находится на его еййэсэкйт. риске) и грузовладельца (из стоимости груза).

Ümumi qəzanın kontribusiya dəyərinə faiz nisbəti. Yükün, gəminin və fraxtın dəyərinə mütənasib surətdə bölüşdürülməli olan ümumi qəza payının müəyyənləşdirilməsi üçün zəruridir. Belə ki, əgər ümumi qəza 100 min dollar, kontribusiya dəyəri isə 300 min dollar olarsa, onda kontribusiya dividendi 0,3333333% olacaqdır. Bu faizdə gəmi sahibinə (gəminin və fraxtın dəyərindən, əgər fraxt gəmi sahibinin riskindədirsə) və yük sahibinə (yükün dəyərindən) düşən ümumi qəzanın payı müəyyən ediləcəkdir.

### Контрибуционная стоимость — Kontribusiya dəyəri
### CONTRIBUTORY VALUE

Фактическая чистая стоимость имущества по окончании морского предприятия, с которой делаются взносы на покрытие общей аварии. Стоимость груза включает расходы на страхование и фрахт, при этом из нее вычитается стоимость всех потерь и повреждений груза до или во время выгрузки. К стоимости имущества добавляется сумма, возмещаемая в качестве общей аварии. Из фрахта и платы за проезд пассажиров (на риске судовладельца) вычитаются также расходы и заработная плата экипажу, которые не пришлось бы уплатить в целях получения фрахта, если бы судно и груз полностью погибли при обстоятельствах, вызвавших общую аварию. Из стоимости имущества вычитаются также все дополнительные расходы, произведенные в отношении этого имущества после общей аварии. Стоимость багажа и ручной клади пассажиров не включается в контрибуционную стоимость.

Dəniz müəssisəsi başa çatdıqdan sonra ümumi qəzanın örtülməsi üçün ödənişlərin verildiyi əmlakın həqiqi xalis dəyəri. Yükün dəyərinə sığorta və fraxt xərcləri daxildir. Bununla bərabər, yük boşaldılanadək və ya boşaldılan zaman onun bütün itki və zədələnmələri ilə əlaqədar vurulan zərərin məbləği dəyərindən çıxılır. Əmlakın dəyərinə ümumi qəza kimi əvəzi ödənilən məbləğ əlavə olunur. Fraxtdan və sərnişinlərin gediş haqqından (gəmi sahibinin riskindədir) eyni zamanda gəmi heyətinin xərcləri və əmək haqqı çıxılır. Belə ki, əgər gəmi və yük ümumi qəzanın yaranmasına səbəb olmuş şəraitdə tam məhv olsa idi, fraxtı almaq məqsədi ilə bu xərcləri və əmək haqqını ödəmək lazım gəlməyəcəkdi. Əmlakın dəyərindən, həmçinin, ümumi qəzadan sonra bu əmlaka münasibətdə çəkilmiş bütün əlavə xərclər çıxılır. Sərnişinlərin baqajının və əl yükünün dəyəri kontribusiya dəyərinə daxil edilmir.

### Контрсталия — Kontrstaliya
### DEMURRAGE

Время простоя судна в порту под грузовыми операциями сверх обусловленного договором морской перевозки сталийного времени. За контрсталию фрахтователь оплачивает перевозчику демередж, размер которого предусматривается чартером.

Gəminin limanda yük əməliyyatları altında dənizlə yük daşınması müqaviləsində şərtləşdirilmiş staliya vaxtından artıq boşdayanması.

Kontrstaliyaya görə fraxtedən daşıyıcıya çarterdə nəzərdə tutulan miqdarda deмerec ödəyir.

*(Davamı var)*

## KÖPƏK BALIĞININ ÜRƏYİ PARTLAYIB

**Rusiyanın Kaliningrad şəhərindəki zooparkın ziyarətçiləri qara üzgəcli rif köpək balığına ölüm hökmü "kəsiblər". Ürəyi zəif olan balıq onların hərəkətlərinə dözə bilməyib.**

Rusiyanın NTV telekanalı xəbər verir ki, Kaliningrad zooparkının əməkdaşlarının ziyarətçilərdən gizlətdiyi rif köpək balığı öldükdən sonra ekspertizaya aparılıb.

Ekspertlərin rəyinə əsasən onda miokardoz - ürək zəifliyi aşkarlanıb. Keçən ilin payız aylarında zooparkda ziyarətçilərin akvariumun şüşəsini uzun müddət və inadla döyməlləri nəticəsində köpək balığı güclü stress keçirmişdi. Qorxuya düşən yırtıcı özünü akvariumun divarlarına çırparaq burnunu və gözünü yaralamışdı. Bundan sonra ixtioloqlar onu müvəqqəti olaraq tamaşaçılardan təcrid edərək suyuna sakitləşdirici dərmanlar tökmək qərarına gəliblər. Lakin köpək balığının ömrünü uzatmaq mümkün olmayıb.

## İnsanın fəallığı yaşadığı yerdən asılıdır

**Böyük Britaniyanın Ekseter Universiteti yanında Tibb Məktəbinin tədqiqat şöbəsinin əməkdaşları öz tədqiqatlarının nəticələrini dərc ediblər. Burada əsas araşdırma obyekti insanın fiziki aktivliyi və buna təsir edən amillərin müəyyən edilməsilə bağlı olub.**

Dəyərləndirmə üçün göstəricilərdən biri kimi eksperiment iştirakçılarının yaşayış yeri seçilib. Məlum olub ki, landşaft və onun mənzərəli olması insanın hansısa bir idman növü ilə məşğul olması və ya daha fəal həyat tərzi keçirməsinə birbaşa təsir göstərir. Beləliklə, əgər yaşayış yerinin yaxınlığında çimərlik və ya meşə varsa, insanın üzgüçülük, qaçış və s. idman növlərilə məşğul olmaq ehtimalı böyükdür.



# Elan






**01.04.2015-ci il tarixindən Bakı-Aktau-Bakı xəttində avtonəqliyyat vasitələrinin daşınması üçün Ro-Ro gəmisi həftədə bir dəfə səfər edir.**

**Avtonəqliyyat vasitələrinin sayı artdıqca səfərlərin də sayı müvafiq olaraq artırılacaqdır.**

**Bakı-Aktau-Bakı və Bakı-Türkmənbaşı-Bakı istiqamətlərində bərələr hər gün səfər edirlər.**

***Əlaqə telefonları: (+99412) 498 02 44; 404 38 59 (+99450) 317 84 44***

***E-mail: chartering@acsc.az; ruslan.gurbanov@acsc.az***

## YARIZARAFAT, YARIGERÇƏK

- Hamı yaxşı adam olduğuna məni inandırmağa çalışır. Nəzərə alsaq ki, hələ gözlərim ağı qaradan yaxşı seçir, qulaqlarımı zora salmağa bir o qədər də ehtiyac yoxdur.
- Həkim var, xəstənin analizlərindən çox, imkanı üzərində baş sındırır.
- Bəziləri səhvlərini böynuna alsa, mən eləmədiyim günahları da boynuma götürərəm.
- Lazım olan yerdə çöpü çöpün üstünə qoymaq, dağı dağ üstünə qoymaqdan yaxşıdır.
- Bəzilərinin paxırı açılsa, onlardan heç nə qalmaz.
- Biz babalarımıza çox oxşadıq. Deyirəm bəzi şeylərdə nəvələrimiz bizə oxşamasa yaxşıdır.
- Nəzərə alsaq ki, səsi oldu-olmadı, hər yerindən duran əlinə mikrafon alır, mikrafon istehsal edənlərin qazancı yəqin ki, pis olmaz.
- Həkimlərin yerində olsaydım, ağrımasa belə, adamların tamah dişini çəkərdim.
- Bəzi adamların 8 saatda gördüyü işlər bütövlükdə 8 qəpiyə dəyməz.
- Təyyarədə uçmaq fikrindən birdəfəlik vaz keçmişəm.

Əminəm ki, yerdə hər addımda məni "baqaj"a qoyanlar, göylə getmək istəyəndə "baqaj"a verərlər.

- Hər dəfə məni kiməsə oxşadanda, oxşatdıqları adama yazığım gəlir.
- Məni 3 şeyə inandırmaq mümkün deyil: bu dünya belə gəlib, belə getsə də, hər kəs üçün belə gedəcəyinə; lap qışda əkilsə belə, hər kəsin əkdiyini biçməyəcəyinə; tüpürdüyünü yalayanın bir daha tüpürməyəcəyinə.
- Qaradan başqa rəng tanımayanlar ancaq başqalarının qanını qaraltmalıdırlar?
- Yaxşı niyyətlə başlanan yolun sonu pis qurtara bilməz.
- Allaha yarımçıq inam ən böyük inamsızlıqdır.
- Yaxşı əməldən yaxşı vəkil yoxdur.
- Bəzilərinə elə gəlir ki, dişlərim töküldüyü üçün başqalarının haqqını yemirəm.
- Kasıb mərd olur?! Belə çıxır ki, varlandıqca, mərdlərimizin sayı azalır?

*Rasif TAHİROV*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

**AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI**

**Aşağıda adları göstərilən kafedralar üzrə vakant olan vəzifələrin tutulması üçün müsabiqə**

**ELAN EDİR:**



**"Dəniz yolları və hidrotexniki qurğular" kafedrası:**
*dosent - 1 yer;*
*assistent - 1 yer;*
*0,5 ştat assistent - 1 yer*

**"Naviqasiya" kafedrası:**
*baş müəllim - 1 yer;*
*assistent - 1 yer*

**"Humanitar fənlər" kafedrası:**
*0,5 ştat dosent - 1 yer*

**"Tətbiqi mexanika" kafedrası:**
*dosent və ya baş müəllim - 1 yer*

**"Dillər" kafedrası:**
*assistent - 1 yer*

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir: Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 18.

Sənədlərin təqdim olunması elan dərc edildiyi tarixdən bir ay müddətindədir.

**Əlaqə telefonu: 493-75-21; 493-36-44 daxili 229**

## "DƏNİZ"İN GÜLÜŞ PAYI

- Müdirimiz sözünü geri götürməsə, mən işdən çıxacağam.
- Nə deyib ki?
- Deyib ki, işdən çıxmaq üçün ərizə yazım.

***

- Ata, min dollar çoxdurmu?
- O baxır sənin məqsədinə. Min dolları qazanmaq istəyirsən, yoxsa xərcləmək?

***

Orduya yeni çağırılmış Amerika dəniz piyadası tüfəngini itirir. Komandir deyəndə ki, itirilmiş silahın dəyərini məvacibindən tutacaq, o, çox təəccüblənir.

- Bu necə ola bilər, - deyir. - Əgər mən yük maşınının sürücüsü olsaydım və onu oğurlasaydılar, buna görə də pul verməliydim?
- Əlbəttə. Donanmada hər kəs vurduğu maddi zərər üçün cavabdehdir.
- Hə, kapitanların öz gəmiləri ilə birlikdə dənizin dibinə getmələrinin səbəbi indi mənə aydın oldu.

***

Hərbi dəniz donanmasının dokunda gəmilər illik müayinədən keçirilərkən eyni akademiyanı eyni ildə bitirmiş iki komandir görüşür. Söhbətlər, xatirələr çox idi. Təbiidir ki, stol arxasında çoxlu şərab içildi.

Nəhayət, komandirlərdən biri güclə ayağa qalxaraq dedi:

-Hələlik, mən getməliyəm.

-Bir az da otur. Mən səni öz qayığımda yola salaram. Hələ otuz altıncı ildə mənə rütbə verməkdən imtina etdiklərini danışmamışam.

Komandirlər çox çərənlədilər və şən əhval-ruhiyyə ilə göyərtəyə çıxarkən qayığı görmədilər.

Əsəbləşmiş komandir əmri yerinə yetirmədiyinə görə zabiti üç gün ev dustağı saxlamaq barədə göstəriş verdi. Zabit dinməz-söyləməz öz kayutuna düşəndə komandir ona yaxınlaşdı:

- Səndən heç vaxt belə şey gözləməzdin. Bacarıqlı zabitsən. Necə oldu ki, on il görmədiyim dostumun yanında məni pis vəziyyətdə qoydun, qayığı hazırlamadın?
- Cənab kapitan, - deyə növbətçi zabit cavab verdi, axı biz quru dokda dayanmışıq.

***

Gəmidən görürlər ki, bir nəfər açıq dənizdə üzür.

- Ey, həyəcanlanmayın,- deyə meqafonla onu çağırırlar. - Bu saat sizə kömək üçün qayıq göndərərik.
- Lazım deyil, - deyə üzən adam əlini yelləyir, - yaxşısı budur, deyin görək, Liverpula qədər necə üzmək olar?
- Üç gün də düz üzün, cümə günü isə sola dönün!

### ELAN

2000-ildə Azərbaycan Dövlət Dəniz Akademiyasında Əliyev Müşfiq Fərayət oğluna verilmiş A 012456 saylı diplom itdiyi üçün etibarsız sayılır.



**BAŞ REDAKTOR**
**Rasif İman oğlu TAHİROV**

**ÜNVANIMIZ:**
**AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 22**
**TELEFONLARIMIZ**
**Baş redaktor (050) 670-33-76,**
**Redaktor (070) 252-39-02**

*Qəzetin təsisçisi*
**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir**

**Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur**

**Şəhadətnamə 271**
**Sayı 2000**
**Sifariş 51**